AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

18 yanvar 2024-cü il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 2 (3666)



# Strateji hədəflər dövrü başlayıb

## Regionların dinamik inkişafı yeni mərhələyə qədəm qoyur

**Prezident İlham Əliyevin ölkənin bölgələrinə etdiyi müntəzəm səfərlər regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının effektivliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Məhz bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılır.**



Regionlarda yaşayan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması istiqamətində də əməli işlər görülür. Prezidentin müntəzəm səfərləri isə bölgələrin tarazlı şəkildə inkişafına və müasirləşməsinə birbaşa xidmət edir. Elə yanvarın 16-da Prezidentin Lənkəran və Neftçala rayonlarına səfərləri, səfər çərçivəsində bir sıra mühüm sosial obyektlərin açılışında və yerlərdə işlərlə birbaşa tanış olması dövlət başçımızın regionlarımızın günbəgün inkişaf etməsi ilə bağlı uğurlu siyasətinin reallığıdır.

Səfər çərçivəsində Prezident İlham Əliyev hər iki rayonda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Lənkəran regional "ASAN xidmət" mərkəzinin açılışında dövlətimizin başçısına məlumat verilib ki, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan ümumilikdə 500 minə yaxın vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Burada 214 əməkdaş və 40 könüllü çalışacaq. Qeyd olunub ki, fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar "ASAN xidmət" mərkəzlərində innovativ həll təmin edilib. Belə ki, mərkəzlərdə olan "ASAN növbə" terminallarına "Seçici statusunu yoxla" adlı funksional bölmə əlavə olunub. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd edilən yerdə oxudaraq adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər. Həmçinin qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında məlumatları əldə etmək mümkündür.

Prezident Lənkəranda yeni inşa edilmiş Ədliyyə Nazirliyinin müasir penitensiar kompleksində yaradılan şəraitlə də tanış olub. Ümumi saxlama limiti 1300 nəfərlik olan penitensiar kompleks iki zonadan ibarətdir. Burada istintaq təcridxanasında barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin, cəzaçəkmə müəssisəsində isə məhkumların məhkəmə hökmünə əsasən müxtəlif rejimlərdə saxlanılması nəzərdə tutulur. Müəssisədə əsasən cənub zonası və bu bölgəyə yaxın olan ərazilərdə yaşayan şəxslər saxlanılacaq ki, bununla onlar öz ailələri ilə daha asan və rahat görüşə biləcəklər.

Dövlətimizin başçısı "Lenk Fruit" Məhdud Məsuliyyətli Cəmiyyətinin Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə və "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub. Bağ təsərrüfatında 140, istehsalı müəssisəsində isə 120 nəfər işlə təmin olunub.

Neftçala şəhərində içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edən Prezident İlham Əliyevə məlumat verilib ki, layihə Neftçala rayonu üzrə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb.

# "Əgər razılığa gəlsək..."

## Sülh müqaviləsi imzalana bilər

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verib. Dövlət başçısı diplomatik, iqtisadi-ticari, energetik, hərbi sahələrdə və Qarabağa qayıdışla bağlı məsələlər barədə sualları cavablandırıb. Mümkün sülh sazişi ilə bağlı da bildirib ki, Azərbaycanla Ermənistan öz aralarındakı məsələni özləri həll etməlidir: "Əgər razılığa gəlsək, sülh müqaviləsi imzalanacaq. Razılığa gəlməsək, deməli, ya danışıqlar davam etdiriləcək, ya da dayandırılacaq. Hər iki variant mümkündür".

# Əhalinin rifahı prioritetdir

## Dörd sosial paket icra olunub

Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla 2023-cü ildə son beş ildə sayca dördüncü sosial paket həyata keçirilib.

Bu sosial paket 1,9 milyon vətəndaşı əhatə edib və ayrılan illik əlavə maliyyə 750 milyon manat təşkil edib. Bu dövr ərzində minimum əməkhaqqı, minimum pensiya məbləğləri, aylıq vəzifə maaşları əhəmiyyətli dərəcədə artırılıb.

# Hərbçilərə qayğı

## Yeni hərbi hospital istifadəyə verilib

Prezident İlham Əliyev yanvarın 15-də Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib.

Dövlət başçısına məlumat verilib ki, səkkiz mərtəbədən və köməkçi binalardan ibarət hərbi hospitalın inşası müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilib. Ümumi sahəsi 24.760 kvadratmetr olan 240 çarpayılıq binada 903 otaq, 17 şöbə, 80 palata mövcuddur. Hərbi dövrdə çarpayı sayının 700-ə çatdırılması imkanları vardır.

# Daxili Qoşunların fəaliyyəti diqqət mərkəzindədir

## Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi keçirilib

**Yanvarın 12-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in Daxili Qoşunlarının 2023-cü ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**



Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, Dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində, eləcə də ötən ilin sentyabr ayının 19-da lokal xarakterli antiterror tədbirləri zamanı da göstərdiyi sücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir, onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov Qoşunların qarşısında duran vəzifələri qeyd edib, tapşırıq və tövsiyələrini verib. Eyni zamanda, əmin olduğunu bildirib ki, şəxsi heyət onlara göstərilən diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

Polis yenə də dar günümüzün dayağı oldu 2
Təbliğat zamanın tələbidir 2
Elmin astanasında... 3
Ötən ilin idman uğurları 4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2024-cü il yanvar ayının 25-də Gədəbəy Rayon Polis Şöbəsinin inzibati binasında Ağstafa, Daşkəsən, Tovuz, Qazax, Gədəbəy və Şəmkir şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in **mia.gov.az** internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# Polis Akademiyasına qəbul başlayır

## Şərtlərə uyğun gələn namizədlər müraciət edə bilərlər

Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə 500 kursantın qəbulu üçün müsabiqə elan edib.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2024-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan vətəndaşları iştirak edə bilər.

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları:
**8880 qaynar xətti, (012) 454-12-78, (012) 590-97-76, (012) 590-99-47.**

Daha ətraflı məlumat Akademiyanın **www.pa.edu.az** internet saytında yerləşdirilib.

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Qarabağda seçki hazırlıqları

İşğaldan azad olunmuş ərazilərdə seçkilərə hazırlıq davam edir. Bunun üçün işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda 26 seçki məntəqəsi yaradılıb. Bu məntəqələrdə 22 minə yaxın seçici qeydə alınıb. Seçicilərin 3700 nəfəri həmin ərazilərə daimi yaşamaq üçün köçənlər, 18 min nəfərdən çoxu isə tikinti-quruculuq işlərində çalışan vətəndaşlardır.

### İqtisadiyyatda artım var

2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal olunub. Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,7 faiz artıb. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 12114,5 manata bərabər olub.

### Sakinlərin məşğulluğu təmin edilir

İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı məşğulluq tədbirlərinə və sosial xidmət infrastrukturunun qurulmasına başlanılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, artıq bu ərazilərə köçürülmüş 1100-dən çox şəxsin məşğulluğu təmin edilib, Füzuli və Laçında əmək yarmarkaları keçirilib. Hazırda 798 nəfərin məşğulluğa cəlb edilməsi istiqamətində işlər aparılır.

### Regionlarda yeni iş yerləri yaradılıb

Azərbaycan Sahibkarlar Konfederasiyasından verilən məlumata görə, 2004-cü ildən bəri regionlarda 52 mindən artıq yeni müəssisə və 1,8 milyondan çox yeni iş yeri yaradılıb. Əhalinin gəlirləri 10 dəfədən çox artıb.

# Polis yenə də dar günümüzün dayağı oldu

## Hər çağırışa operativ reaksiya verilib

**Bu qış qar, bərəkət, sevinc gətirsə də, hamımızı sınağa çəkdi. Bir andaca hər tərəfi bürüyən şaxtalı, çovğunlu qar çoxlarını qəfil yaxaladı, onları çətin vəziyyətlə üz-üzə qoydu. Ancaq qarın özü ilə bərabər gətirdiyi fəsadlarla yanaşı, sosial şəbəkələrdə edilən yüzlərlə paylaşım hər birimizin qəlbini isitdi...**





Bu paylaşımlar gecə-gündüz keşiyimizi çəkən, həmişə dar günümüzün etibarlı dayağı olan polislərimizin şaxta-qar demədən, çovğuna baxmadan köməksiz vəziyyətdə qalan insanlara yardım etməsi ilə bağlı idi. Onsuz da belə təhlükəli havalarda polis gücləndirilmiş iş rejiminə keçir, amma bu paylaşımlardan da bir daha gördük ki, onlar öz işlərini sadəcə yerinə yetirməli olduqları peşə vəzifəsi kimi yox, xalqımıza, bütövlükdə vətənimizə olan böyük sevgi hissləri ilə cani-könüldən həyata keçirirlər.



Çətin hava şəraitində, yolların buz tutduğu təhlükəli vəziyyətdə yol polisi avtomobil sıxlığına qarşı, hərəkətin intensivliyinin təmin edilməsi istiqamətində gecə-gündüz fasiləsiz çalışaraq öz vəzifəsinin öhdəsindən layiqincə gəldi...

Qarlı yollarda qalanlara kömək əli uzatmaqdan, onları ünvanlarına çatdırmaqdan, yaşlılara, qucağı körpəli insanlara yardım etməkdən tutmuş, buzda ilişib qalan avtomobilləri öz əlləri ilə itələyib çıxarmaqlarına qədər polislərimizin fəaliyyəti ilə bağlı hər bir görüntü təqdirəlayiq hadisə oldu.

Onlar bu qarlı havada balaca dostlarımızı, sahibsiz heyvanları da yaddan çıxarmayaraq onları donvurmadan xilas etdilər, sığınacağa, yeməklə təmin etdilər...

O da xüsusi vurğulanası məqamdır ki, bu qəlb isidən paylaşımların altına yazılan şərhlərin hamısında polislərimizin timsalında qəhrəman Azərbaycan oğulları ilə bağlı duyulan fəxr, qürur hissləri bir daha ifadə olundu.

Respublikanın bütün ərazilərində hava şəraiti ilə əlaqədar gücləndirilmiş rejimdə əlavə heyətlə xidmətini davam etdirən Daxili İşlər Nazirliyinin əməkdaşlarının həyata keçirdiyi qabaqlayıcı tədbirlərin səmərəli nəticəsidir ki, ölkə ərazisində kəskin hava şəraiti ilə əlaqədar ağır, yaxud ölümlə nəticələnən hadisə qeydə alınmayıb. DİN-in "102 Xidməti - Zəng Mərkəzi"nə vətəndaşlar tərəfindən hava şəraiti ilə bağlı minlərlə çağırış daxil olub, kömək istənilib və hər bir çağırış operativ qaydada yerlərdə xidmət edən əməkdaşlara ötürülməklə vətəndaşlara zəruri kömək göstərilib. Çağırışlar əsasən respublikamızın magistral yollarında, xüsusilə dağlıq ərazilərdə hərəkət edən şəxslərlə bağlı olub. Sağlamlıq vəziyyətində problem yaranan şəxslərin polisin xidməti avtomobilləri ilə yaşayış yerlərinə çatdırılması təmin edilib.

Ümumən yanvarın 13-ü axşamdan, yəni havanın pisləşməsindən başlayaraq görülən tədbirlər, əlavə heyətin xidmətə çıxarılması, fasiləsiz iş rejimi, respublikanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təmin edildi.

Bəli, polislərimiz Naxçıvandan Qusara, Astaradan Zaqatalaya, Bakıdan Laçına, Ağdamdan Kəlbəcərə, Şuşadan Xocalıya, Xankəndiyə və digər şəhər, rayonlara qədər bütöv Azərbaycanda bu qarlı, şaxtalı havada fasiləsiz xidmət etdilər.

Həm də Qarabağı, Şərqi Zəngəzuru başdan-başa ağ dona bürüyən bu qarlı havada, uğrunda qanlarını tökdükləri, şəhidlər verdikləri bu torpağın murdar erməni ləkəsindən təmizlənmiş, paklanmış halında, vəzifələrini şərəflə yerinə yetirdilər.

Bütün çətin, təhlükəli hallarda, hər cür hava şəraitində Azərbaycan polisinin gecə-gündüz, ayıq-sayıq xalqımızın təhlükəsizliyinin etibarlı keşiyində olmasının sayəsində insanlarımız növbəti qış sınağından da heç bir problemlə üzləşmədən, sağ-salamat çıxdılar.

*Yasəmən Musayeva*
*"Azərbaycan"*

# Ötən ilin hesabatı...

## Veteranlarımız təcrübələrini bölüşürlər

Polis veteranları cinayətkarlığa qarşı peşəkar mübarizədə əldə etdikləri zəngin təcrübəni gənc əməkdaşlarla bölüşür, ictimai təhlükəsizliyin təminində, cinayətlərin profilaktikası məqsədi ilə əməli köməklik göstərilməsində bilik və bacarıqlarını əsirgəmirlər.

Eyni zamanda, onlar yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə polis əməkdaşları ilə birgə vətəndaşlarla görüşlər keçirir, hüquqi mövzularda maarifləndirmə işlərinin aparılmasında iştirak edir, gənc nəslin sağlam ruhda yetişməsi üçün böyük səy göstərirlər.

Ötən il ərzində veteranların köməyi ilə 9111 cinayətin açılıb, bir çox ümumtəhsil məktəblərində keçirilən maarifləndirmə tədbirlərində iştirakları təmin olunub.

Törədilən cinayətlərin açılmasında Naxçıvan Muxtar Respublikasının polis veteranlarının da yaxından iştirakı qeydə alınıb. Belə ki, 7 cinayət hadisəsinin açılmasında səylərini əsirgəməyiblər. Muxtar Respublikanın təhsil müəssisələrində keçirilən 72 maarifləndirmə tədbirində iştirak ediblər.

Şuranın ötənilki fəaliyyətinə diqqət çəkən DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanov bildirdi ki, yola saldığımız ildə ümummilli lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar keçirilən tədbirlərdə həm özü, həm də şuranın üzvləri yaxından iştirak edərək aidiyyəti nümayəndə kimi Nazirliyi təmsil etmiş, ulu öndərin ölkəmizə rəhbərliyi dövründə gördüyü işlər, apardığı islahatlar, Azərbaycançılıq ideyasının formalaşdırılması üzrə həyata keçirilən daxili və xarici siyasətin mahiyyəti barədə çıxışlar etmişlər.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Təbliğat zamanın tələbidir

## Cəmiyyətdə ictimai davranışa təsir edən amillərdən biri də maarifləndirmədir

Maariflənmək və maarifləndirmək bütün dövrlər üçün aktual olan məsələlərdəndir. Kitaba, elmə, mütaliəyə həvəs yaratmaqla oxumuş insan yetişdirmək çabası ona görədir ki, cəmiyyət həyatına təsirsiz ötüşməyən problemlərlə, bu gün leksikonumuzda yer alan zərərli vərdişlərlə mübarizə aparmaq asan olsun. Çünki intellektual səviyyə ictimai davranışı şərtləndirən amillərdəndir.

Ölkəmizdə gənc nəslin sağlam mühitdə böyüməsi prioritetlərdəndir. Gənclərlə bağlı həyata keçirilən layihələr, cəmiyyəti təhdid edən mövzularla bağlı maarifləndirici tədbirlərin keçirilməsi məsələnin ciddiliyini gözlər önünə sərmiş olur. Etiraf edək ki, sosial şəbəkələr üzərindən maarifləndirmə də günün tələblərindən biri kimi artıq sosiallaşıb. Məsələn, ötən il əllərdə olan, qanunsuz saxlanılan silahlarla bağlı DİN tərəfindən edilən çağırışın bir növ hərəkat halını alması ilə təhvil verilən silahlar cinayət alətinə çevrilmədi, daha doğrusu, törədilə biləcək cinayətlərin qarşısı vaxtında alınmış oldu. Deməli, maarifləndirmə müsbət tendensiyaya çevriləndə nəticələr ürəkaçan olur.

### İlk addımı polis atır

Polisin təşkilatçılığı ilə ötən il məktəblərdə 2700-dən çox görüş-maarifləndirici tədbir keçirilib. Bu statistika adi rəqəm kimi görünsə də respublikanı əhatə edən fəaliyyətin alt qatında böyük bir xilaskarlığın şahidiyik. İş təkcə gəncləri bir araya gətirməklə, bir çox mövzular ətrafında fikir mübadiləsi aparmaqla bitmir. Burada cəmiyyəti təhdid edən problemlərin dövlətçiliyə təsiri də diqqətə alınmalıdır.

Yeri gəlmişkən, ötən il medianın gündəmindən düşməyən məsələyə, azyaşlının ərə verilməsinə polisin reaksiyası, daha doğrusu, onun atası barədə qanunvericiliyə müvafiq olaraq addım atılması gələcəkdə neçə belə ailə faciəsinə səbəb olacaq problemlərin qarşısını aldı.

Qeyd edək ki, daxili işlər orqanları tərəfindən 2023-cü ildə erkən nikahlarla bağlı 50 fakt qeydə alınmış, onlardan 19 fakt əsasında isə Cinayət Məcəlləsinin 152.1-ci maddəsi ilə, 1 fakt əsasında isə Cinayət Məcəlləsinin 176-1-ci maddəsi ilə cinayət işi başlanılmışdır. Məktəblərdə keçirilən görüşlərin daha bir faydası ondan ibarətdir ki, hər bir şagird, gənc, yeniyetmə onun həyatını, gələcəyini xilas etmək üçün həyatını belə qurban verməyə hazır olan qəhrəmanını tanımış olur.

Cəmiyyətin cəza mexanizminin işə düşməsi üçün çevik reaksiya elə cəmiyyətin özündən gəlməlidir. Lakin son günlər baş verənlər göstərdi ki, cəmiyyət hələ "özünücəzalandırmağa" hazır deyil. "Özünücəzalandırma" isə beyinlərdə kök salmış adətlərin, cəhalətin üstündən birdəfəlik xətt çəkməkdir.

İctimai sabitliyə təhlükə yaradacaq amillərin aradan qaldırılması polisin fəaliyyətilə birbaşa bağlı olsa da, görülən tədbirlər vətəndaşın da üzərinə böyük bir məsuliyyət qoyur. Heç şübhəsiz ki, mübarizənin kiçik bir vintini hərəkətə gətirmək üçün maariflənmənin və maarifləndirmənin əhəmiyyəti gələcəkdə dövlətin qazandığı uğurlarda özünü büruzə verəcək.

*T.Hafiz*

# Elmin astanasında...

## Polis Akademiyasının magistraturası parlaq elmi perspektiv vəd edir



**Polis Akademiyasının magistraturası dinləyicilərə elmi-tədqiqat üçün geniş imkanlar açır. Hüquq elmini daha dərindən araşdırmaq məqsədilə magistr təhsili alan polis əməkdaşları bu pilləni keçməklə həm elmi dərəcədə, həm cinayətkarlıqla mübarizənin metodiki əsaslarını tədris edən müəllim-professor heyətinə qoşulma yolunda irəliləyirlər.**







Bu gün Akademiya ölkəmizdə yeganə ali təsil müəssisəsidir ki, hüquqşünaslıq ixtisasının nəzəri-praktiki avanqardı olmaq məsuliyyətini öz üzərinə götürüb. Gələcəkdə isə bu missiyanı hazırda magistraturada təhsil alan və müəllimliyə, elmi adlara namizədlər davam etdirəcək.

Bunu özünün məqsədlərindən biri hesab edən ikinci kurs magistr dinləyicisi polis leytenantı Ayişə Əliyeva deyir ki, öyrəndiklərini təkmilləşdirmək və müasir hüquq elminin aktual problemlərinin həlli istiqamətində araşdırmalar aparırlar. Akademiyanın kursantı olmuş A.Əliyevanın fikrincə, bu gün mənimsədikləri nəzəri və təcrübi biliklər gələcək kursantların hazırlanması üçün faydalı təməldir. Bundan ötrü fəal, interaktiv təlimin metodlarından, beynəlxalq təcrübədən səmərəli istifadə olunur, simpoziumlar, seminarlar, konfranslar və digər tədbirlər təşkil edilir. Yeni magistrlar üçün geniş imkanlar yaradılıb. “Burada müəllimlərimiz bizə həm polis əməkdaşı, həm də pedaqoq kimi nümunə, örnək olurlar. Bu, bizim üçün əvəzedilməz mənbədir”,- deyə bildirir.

Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kimi ciddi sahələr üzrə ixtisaslaşan magistrların öz potensiallarını ortaya çıxarmaları üçün Akademiyada əlverişli şərait yaradılıb.

Bu barədə bizimlə fikirlərini bölüşən polis leytenantı Elgün Rəhimli də Akademiyanın kursantı olub, indi magistraturanın birinci kursunda təhsilini davam etdirir. O, deyir ki, bakalavriant dövründə əldə etdikləri bilikləri təkmilləşdirmək üçün təhsil müəssisənin olduqca güclü maddi-texniki və elmi bazasından istifadə edirlər: "Magistr klubumuz mövcuddur ki, orada müasir aktual hüquqi problemlər, yeni yaranan cinayətlərlə mübarizə və polisin buna adekvat hazırlığı kimi önəmli mövzular tədris edilir. Bizə konfranslarda, dəyirmi masalarda daxili işlər orqanlarının təcrübəli əməkdaşları, həmçinin digər orqanlardan dəvət olunan məruzəçilər elmi mühazirələr deyirlər, diskusiyalar təşkil edilir. Bir sözlə, fundamental nəzəri biliklər burada zəngin təcrübə ilə birləşir”.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin məzunu, polis kapitanı Səadət Bağırovanı da Akademiyada magistr təhsili almağa bu amil həvəsləndirib. O, magistr imtahanından yüksək nəticə ilə keçib. Daxili işlər orqanlarında 2016-cı ildən xidmət edən birinci kurs magistr dinləyicisi S.Bağırova bildirir ki, bu təhsil ocağında dərin hüquqi nəzəriyyənin zəngin təcrübə ilə cilalanması elmi-pedoqoji fəaliyyət üçün geniş perspektivlər yaradır: “Cinayət hüququ və kriminalogiya sahəsində qazandığım yeni biliklərin məndə daha dərin, daha təfsilatlı, daha geniş elmi qənaət formalaşdıracağına əminəm. Bunun üçün müəllim-professor heyəti bizə yaxından kömək edir. Akademiyanın rəhbərliyinə də minnətdarlığımı bildirirəm ki, belə şərait yaradıblar”.

Akademiyadan da bizə bildirdilər ki, DİN rəhbərliyi peşəkar, fundamental hüquqi biliklərə sahib, millətini və dövlətini sevən polis yetişdirilməsini prioritet tələb kimi müəyyən edib. Magistrların hazırlığında da bu meyarlar əsas götürülür. Onların bakalavr pilləsində əldə etdikləri bilikləri daha dərindən araşdırmaq, professional şəkildə öyrənmək imkanları var. Nəticələr də göstərir ki, elmin astanasında olan magistrlar səriştəli, peşəkar müəllimə çevriləcəklər.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Dilənçiyə sədəqə verək, yoxsa verməyək?!

## Xeyir əməlimiz şərə necə qulluq edir?

Bütün ölkələrdə, xüsusən iri şəhərlərdə dilənçilərə rast gəlinir. Təcrübə göstərir ki, dilənçilik ölkə əhalisinin yoxsul, aşağı gəlirli olması ilə o qədər də əlaqəli deyil. Çünki dilənmə yoxsulluq səviyyəsi aşağı olan ölkələrdə də mövcuddur.

Digər bir yandan, onların bir qayda olaraq məskunlaşmağa can atdıqları böyük şəhərlərdə ictimai təhlükəsizlik əsas məsələ hesab edilir. Təhlükəsizliyi təhdid edən riskli qruplar arasında isə dilənçilərin də adı çəkilir. Avropa İttifaqına üzv olan dövlətlərin əksəriyyətində dilənçilik ictimai asayişə və əmin-amanlığa zidd davranış hesab olunur. Onların ictimai yerlərdə görünməsi çox vaxt inzibati qaydalar və yerli bələdiyyələrin qərarları ilə qadağan edilir. Bəzi üzv dövlətlərdə isə hətta cinayət sayılır. İtaliyada başqalarının mərhəmətindən fırıldaqçı vasitələrdən istifadə etməklə, insanları narahat edəcək şəkildə və ya özünü xəstəyə oxşadaraq dilənçiliklə məşğul olanlar 3 min avrodan 6 min avroya qədər cərimələnir və yaxud 3 aydan 6 aya qədər həbslə cəzalandırılır. İsveç hökuməti bələdiyyələrə ictimai yerlərdə dilənməyi qadağan etmə səlahiyyəti verib. Avstraliyanın bəzi əyalətlərində dilənmək, sədəqə toplamaq 12 aylıq həbslə cəzalandırılan cinayətdir. Dilənçilərin pulları “cinayətdən əldə edilən gəlir” kimi müsadirə edilir.

Beləcə qeyd edə bilərik ki, inkişaf etmiş dövlətlərin qitəsi kimi görünən Avropada və başqa yerlərdə dilənçilik sosial-iqtisadi deyil, kriminal təhdid kimi qəbul olunur.



Bizim qanunvericiliyimizdə mütəmadi olaraq xırda oğurluq və ya dilənçilik yolu ilə dolanmaq avaralıqla məşğul olmaq kimi başa düşülür və inzibati tənbeh tədbirlərinin tətbiqinə səbəb olur.

Hazırda inkişaf edən texnologiya ilə birlikdə dilənçilərin də “iş üsulları”, dilənmənin forması, məqsədi belə dəyişib. Məsələn, internet üzərindən saxta yardım kampaniyaları təşkil olunur. Qapı-qapı gəzən “ənənəvi dilənçi” belə mənzil sahibinin evdə olub-olmadığını yoxlayır, oğurluq əməli üçün kəşfiyyat aparır. Qucağında körpəsi ilə dayanan qadın uşağının həyatını qəpik-quruşa satışa çıxarır və ona pul verənlər “alıcıya” çevrilirlər. Bu işlə “peşəkarcasına” məşğul olanları tutmaq, ifşa eləmək, az qala bir cinayətin üstünü açmaq qədər ağır zəhmət tələb edir. Çünki dilənçilər mobil telefonla xəbərləşərək polisin hərəkəti barədə bir-birlərini məlumatlandırır, tez-tez yerlərini dəyişirlər. Üzərlərində şəxsiyyətlərini dəqiqləşdirəcək heç bir sənəd gəzdirmədiklərinə görə onların kimliyini müəyyən etmək də uzun zaman alır, resurs tələb edir.

Dilənçilərin uşaqlardan istifadə etməsi bu problemin ən ürək ağrıdan tərəfidir. Azyaşlıların dilənməsi ya da dilləndirilməsi bizim mənəvi ağrımızı artırdığı kimi, onları buna məcbur edənlərin hüquqi məsuliyyətini də ağırlaşdırır. Əldə etdiyimiz məlumata görə, məhz bu kimi hüquqazidd halların qarşısını almaq, yetkinlik yaşına çatmayanların hüquq və mənafelərini müdafiə etmək məqsədilə polis ötən il dövlət və qeyri-dövlət təşkilatları nümayəndələrinin iştirakı ilə 1280-dən artıq reyd və yoxlama keçirib. Dilənçiliklə məşğul olan 300-dən artıq azyaşlı müəyyən edilib. Uşaqların təlim-tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirməyən, onları avaralıq və dilənçiliyə cəlb edən valideynlər barəsində inzibati protokol tərtib edilərək, məhkəmələrə və ərazi icra hakimiyyəti yanında fəaliyyət göstərən komissiyalara göndərilib.

Dünyanın başqa ölkələri üçün burada örnək olacaq nüans ondan ibarətdir ki, polis aşkar edilmiş faktlar üzrə sosial yönümlü dəstəyin göstərilməsi üçün öz imkanlarından istifadə edir. Məsələn, onların məşğulluq və digər sosial məsələlərinin həlli ilə bağlı ərazi icra hakimiyyəti strukturlarına təqdimatlar göndərilir. Yəni, Azərbaycanda polis yalnız cəzalandırmır, dilənçiliyin konseptual həllinə çalışır.

*R.Baxşəlioğlu*

# Şanlı tariximiz

## 20 Yanvar milli qürur günümüzdür




Xalqımızın milli kimliyinə, milli azadlıq ruhuna qarşı təcavüz olan 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, iradəmizi, milli azadlıq uğrunda mübarizə əzmimizi qıra bilmədi. Şəhid olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, müstəqilliyimizə yol açdılar.

20 Yanvar faciəsini bəşəriyyətə, humanizmə, insanlığa qarşı qanlı terror aktlarından biri kimi qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir: “Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi”.Həmin gün qırmızı ordu tərəfindən Bakıda, Salyanda, Lənkəranda, Neftçalada 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Yanvarın 19-dan 20-nə keçən gecə şəhid olanların arasında 4 nəfər polis əməkdaşı da vardı.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Qanvermə aksiyası keçirilib

## Həmkarlarımızdan həmrəylik nümayişi



Şirvan regional qrupumuzdan verilən məlumata görə, Salyan Rayon Mərkəzi Xəstəxanasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzi və Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə "Talassemiyadan əziyyət çəkən və qana ehtiyacı olan digər xəstələr üçün təşkil olunmuş qanvermə aksiyası" keçirilib. Gerçəkləşən humanist aksiyada Salyan Rayon Polis Şöbəsinin şəxsi heyəti də fəal iştirak edib.

Polis əməkdaşları tibbi müayinədən keçdikdən sonra qan veriblər. Onlar qana ehtiyacı olanlara yardım etməyin nəcib əməl, vətəndaşlıq borcu, həm də həmrəylik nümunəsi olduğunu bildiriblər.

# Tədbirlər davam etdirilir

## Xeyli sayda silah-sursat aşkarlanıb



Polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silahların, döyüş sursatlarının, partlayıcı maddələrin könüllü təhvil verilməsi, eləcə də işğaldan azad edilmiş ərazilərdə aşkar edilməsi istiqamətində aparılan profilaktik tədbirlər fasiləsiz olaraq davam etdirilir.

Keçirilən tədbirlərlə yanvarın 10-dan 16-dək Xankəndi şəhəri ərazisində 2 pulemyot, 41 müxtəlif markalı avtomat silahı, 9 tapança, 15 müxtəlif markalı tüfəng, 59 qumbara, 1 qumbaraatan, 20 qumbara alışdırıcısı, 203 patron darağı, 11.457 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

Tədbirlərin davamı olaraq Qubadlı rayonunda isə Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Mahmudlu kəndi ərazisində 1 pulemyot, 1 avtomat, müxtəlif çaplı patronlar və digər sursatlar aşkar olunaraq aidiyyəti üzrə təhvil verilib.

# Ötən ilin idman uğurları

## Respublikamızın idman həyatında DİN İdman Cəmiyyətinin rolu yüksəkdir

Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasında, habelə əldə etdiyi uğurlarda DİN İdman Cəmiyyətinin əhəmiyyətli rolu var. 2023-cü ildə 100-ə yaxın polis əməkdaşının ölkə və beynəlxalq miqyaslı yarışlarda 14-ü milli komandaların tərkibində olmaqla ümumilikdə qazandığı 28 medal bunu deməyə əsas verir.

Ötən il təmsilçilərimiz iştirak etdiyi yerli və beynəlxalq dərəcəli çempionatlarda 206 medala (97 qızıl, 48 gümüş, 61 bürünc) sahibləndi. Bunlardan 56 yeniyetmələrin, 65 gənclərin, 85 medal isə böyüklərin payına düşüb. Medalların 46-sı beynəlxalq miqyaslı, 160-ı respublika əhəmiyyətli olub.

2023-cü ildə Estoniyanın paytaxtı Tallin şəhərində keçirilən 10 metr məsafəyə pnevmatik tapançadan güllə atıcılığı üzrə Avropa çempionatında II yeri tutan DİN-in Daxili Qoşunlarının idman komandasının məşqçi-müəllimi mayor Ruslan Lunyov Paris 2024 Yay Olimpiya Oyunlarına lisenziya əldə edən ilk



Azərbaycanlı idmançı olub. Bundan başqa, Polşada yekunlaşan III Avropa Oyunlarında qüvvəsini sınayan nümayəndələrimiz kikboksçu Fərid Ağamoğlanov "full contact" versiyası üzrə 63.5 kiloqram çəki dərəcəsində qızıl, boksçulardan Daxili Qoşunların müddətli həqiqi hərbi xidmət qulluqçusu əsgər Murad Allahverdiyev 80 kiloqram çəki dərəcəsində bürünc medalla yarışı başa vurublar.

Yeri gəlmişkən qeyd edək ki, ötən ildə respublikanın idman həyatında göstərdikləri yüksək nəticələrə görə ölkənin yeniyetmə və gənclərdən ibarət milli komandanın baş məşqçisi, Baş Mühafizə İdarəsinin Növbətçi Hissəsinin Komendant manqasının komandiri polis baş serjantı Hikmət Hacıyev, Əlahiddə Çevik Polis Alayının polis kiçik serjantı Məmmədəli Mehdiyev və Azərbaycan Atıcılıq Federasiyasının idmançısı Nigar Nəsirova mükafat qaydasında Prezident İlham Əliyev tərəfindən mənzillə mükafatlandırılıb.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*






# Həmkarımızın qələbə sorağı

## Qalibiyyət zəhmətlə əldə edilir



Bu günlərdə Macarıstanın Erd şəhərində sumo güləşi üzrə beynəlxalq turnir keçirilib. Daxili İşlər Nazirliyinə Bilavasitə Tabe Olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzinin əməkdaşı, polis leytenantı Sadiq Ağamalıyev də bu turnirdə gücünü sınayıb. O, hər iki yarışda yüksək nailiyyət əldə edib. Belə ki, böyüklər arasında keçirilən ilk yarışda mütləq çəkidə estoniyalı, macarıstanlı və polşalı rəqiblərinə qalib gələrək finala vəsiqə qazanıb. Finalda norveçli rəqibi üzərində qalibiyyəti əldə edib və qızıl medala layiq görülüb. Sözügedən yarışda həmkarımız -115 kiloqram çəkidə gümüş medalın sahibi olub.

Azərbaycan yığması komanda hesabında beynəlxalq turniri 2-ci pillədə başa vurub.

Qeyd edək ki, polis leytenantı S.Ağamalıyev ötən ay Azərbaycan Gənclər və İdman Nazirliyinin, Yapon Döyüş növləri və Mədəniyyəti Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən yeniyetmə və böyüklər arasında sumo üzrə ölkə çempionu adını qazanmışdı.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Katorqaya aparan yol

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

Əlbəttə, iki kişi olsaydıq, daha yaxşı olardı. Bunu bilməyin kifayət edər ki, sən sadəcə Tabretri küçəsindəki kafedə oturub şərab içə-içə bizi gözləyəcəksən. Onu da söyləyim ki, kafe elə də uzaqda deyil, düz oğurluq edəcəyimiz evlə üzbəüzdür. Çıxdığımızı görən kimi, arxamızca gəl. Aparıb malları sataq, ordanda sən də payına düşəni götürərsən, vəssəlam. Mən bilmirəm sənin etibarını qazanmaq üçün daha nə edə bilərəm. Nə dediyimi başa düşürsən?

Bu sözlər elə səmimiyyətlə deyildi ki, həqiqətən də Korve haqqında nə düşünəcəyimi özüm belə bilmirdim. Özünə şərik, yoldaş axtarırdı, yoxsa fikri məni ələ vermək idi? Doğrusu, mən bu fərziyələrin hansının həqiqət, hansının yalan olduğunu bilmirdim, ancaq dəqiq bildiyim bir şey vardı – Korve şərəfsiz və əclafın biridir. Özünün dediyinə görə həyat yoldaşını da oğurluğa o məcbur edib. Beləsindən nə gözləmək olardı axı? Əgər dedikləri həqiqətdirsə, mənim borcum onu ədalət məhkəməsinə təhvil verməkdir, yox, əgər fikri məni ilişdirib tora salmaqdırsa, onda şübhələrin sonuna qədər gedib rəhbərliyə sübut etmək lazımdır ki, Vidoku belə oyunlarla sınağa çəkmək lüzumsuz




yerə vaxt itirməkdən başqa bir şey deyil.

Mən Korveni bu axmaq planından çəkindirməyə çalışsam da o, öz fikrində israrlı görünürdü, belə olan halda mənim bir yolum qalırdı - özümü onun arqumentlərinə inanmış kimi göstərmək.

### Cütlüyün həbsi

O, sevincindən məni bərk-bərk qucaqladı. Biz saat dörddə şərab mağazasının qarşısında görüşməyi qərarlaşdırdıq. Korve məndən ayrılıb evə getdi. Tək qalan kimi müqəddəs Nikolay qəbiristanlığı küçəsinin komissarı Allemana planlaşdırılan oğurluq barədə məktub yazdım. Eyni zamanda günahkarları cinayət başında necə yaxalamaq barədə göstəriş və məsləhətlərimi də bildirdim.

Təyin olunmuş vaxtda mən öz yerimdə idim. Korve və arvadı da gecikməmişdilər. Candərdi onlarla bir şüşə şərab içdik, bundan daha da cəsarətlənən ər-arvad planlarını reallaşdırmağa yollandılar. Müfəttiş Allemanın peşəkarlıqla hazırladığı əməliyyat nəticəsində cütlük mənzildən oğurladıqları əşyalarla birlikdə həbs edildilər.

Nəticədə cəmiyyət üçün yaramaz bu ər-arvad katorqaya göndərilərək, on il islah işlərinə məhkum edildilər.

Məhkəmə dindirilmələri zamanı Korve və həyat yoldaşı hakimi inandırmağa çalışırdılar ki, onları oğurluq etməyə mən təhrik etmişəm. Kimisə nəyəsə təhrik etmək, özü də oğurluq etməyə?! Yox, bu mənim həyat tərzimə tamamilə ziddir. Hər bir insan yaradılışdan ya dürüst olur, ya da naqis. Əgər dürüstdürsə qarşılaşdığı heç bir çətinlik onu yolundan çaşdıra bilməz, yox, əgər naqisdirsə o, bunu gec-tez biruzə verəcək.

Əgər Korve və arvadı səbəbindən aslı olmayaraq oğurluq ediblərsə, deməli, onlara oğru deməkdən çəkinməmək lazımdı. Mən onları heç nəyə təhrik etməmişəm, sadəcə dedikləri ilə razılaşmışam. Kimsə mənə irad bildirə bilər ki, sən hədə-qorxu gəlməklə onları bu yoldan çəkindirə bilərdin. Bəlkə də, amma bu çıxış yolu deyildi. Bu gün onları kimsə təkidilə cinayət törətməkdən çəkindirə bilsə də sabah yenə köhnə hamam, köhnə tas olacaqdı. Təbii ki, bu dəfə məndən xəbərsiz. Belə olan halda törətdikləri cinayətin bütün məsuliyyəti mənim üzərimdə qalacaqdı. Bir də ki, əgər Korve mükafat müqabilində prefektin tapşırığına əsasən məni tora salmaq fikrində olubsa, onda mən haqlı olaraq öz təhlükəsizliyimi təmin etmişəm. Bu cür hadisələrin qarşısını almaq və düşmənlərimin sonunu gətirmək üçün bütün mümkün ehtiyat tədbirlərini görmək məcburiyyətindəyəm. Korveni prefektə deyil, həmin məhəllənin komissarına təhvil verməklə mən istədiyim nəticəyə nail oldum.

### Düşmənlərin planı

Rəhbərlik etdiyim təhlükəsizlik briqadası formalaşandan sonra, məni gözü götürməyən polislər və onların agentləri dəstəm haqqında mənfi fikir formalaşdırır, barəmdə olmazın şayələri yayırdılar. Onlar bizim həyətin yalnız həbsdən azad olunmuş katorqaçılardan və cibgirlərdən təşkil olunduğunu söyləyirdilər. Söz gəzdirirdilər ki, belə yaramazları təhlükəsizlik polisində xidmətə necə götürmək olar? Məgər bu vətəndaşların həyatını və əmlakını təhlükəyə atmaq deyilmi? Onlara cavabı çox hörmətli cənab İvrier verdi: "Vidok istəsəydi sizin hamınızı məhv edərdi. Ləyaqətli adamlara şər atmaq alçaqlıqdır."

Briqadamın üzvlərinin çevikliyi və bacarığı sayəsində haqqımızda şayələr gəzdirənlər nəhayət rəhbərliyin gözündən düşdülər. Məni aradan götürmək üçün etdikləri bütün cəhdləri boşa çıxanda, düşmənlərim taktikalarında dəyişiklik etməyə qərar verdilər.

*(Ardı var)*

# Kleptomaniya – oğurluq xəstəliyi

## Onu cinayət əməlindən necə fərqləndirək?

Kleptomaniya, insanın ehtiyac duymadığı və dəyər vermədiyi şeyləri oğurlamaq üçün təkrarlanan impulsiv istəyidir. Kleptomaniya yunanca oğru mənasını verən "Kleptes" sözündədir. kleptomanlar ümumiyyətlə oğurladıqları şeylərdən istifadə etmir və satmırlar. Əksinə, oğurluq onları rahatlaşdırır və onlara həzz verir.

Kleptomaniya impuls nəzarət pozğunluqları kateqoriyasına daxil olan psixi sağlamlıq problemidir. Bu pozğunluq insanın arzularını idarə etməkdə çətinlik çəkməsinə səbəb olur. Kleptomaniya adətən yeniyetməlik və ya erkən yetkinlik dövründə başlayır.

### Kleptomaniyanın səbəbi nədir?

Kleptomaniyanın dəqiq səbəbi məlum deyil. Bununla belə, onun yaranmasında genetika, beyin pozuntuları və ətraf mühit faktorlarının birgə təsirinin rol oynadığı düşünülür.

Kleptomaniyaya səbəb ola biləcək genetik faktorlara beyin funksiyalarına təsir edən genlər daxildir. Bu genlər dofamin və seratonin kimi neyrotransmitterlərin yaranmasına və ya fəaliyyətinə təsir göstərə bilər. Dofamin əhval ruhiyyə və motivasiya ilə əlaqəli bir nörotransmitterdir. Seratonin əhval ruhiyyə və emosiyaların tənzimlənməsi ilə əlaqəli bir nörotransmitterdir.

Kleptomaniyanın əsas simptomlarından biri oğurluğun çox vaxt planlaşdırmadan və düşünülmədən edilməsidir.

Kleptomaniya tez-tez digər psixi sağlamlıq problemləri ilə yanaşı baş verir. Bu problemlərə narahatlıq, depressiya, narkotik asılılığı, məişət zorakılığı və şəxsiyyət pozğunluqları daxildir. Bu "xəstəliyin" müalicəsi kompleks şəkildə adətən dərman və psixoterapiya ilə aparılır. Psixoterapiyada tez-tez koqnitiv davranış terapiyasından istifadə olunur. KDT insana arzularını və istəklərini idarə etməyi öyrənməyə kömək edir.

Mütəxəssislər deyir ki, kleptomaniya müalicə edilə bilən psixi sağlamlıq problemidir. Müalicə ilə kleptomanların öz istəklərini idarə etməyi öyrənmələri və arzularını idarə etməkdə daha uğurlu olmaları mümkündür.

*Hazırladı:Ruhiyyə Zahidqızı*

# Müdriklərin söz xəzinəsi

## Susmaq dözülməsi çox ağır olan bir cavabdır

Dünya və axirət xeyri elm ilə yaşıdır.

❖❖❖

Əgər insanlar elm kəsb etməyin nə qədər böyük və dəyərli olduğunu bilsəydilər, onu hətta qanlarını axıtmaqla, tufanlı, dalğalı dənizləri yarmaqla belə öyrənərdilər.

❖❖❖

Heç bir sərvət ağıldan böyük, heç bir yoxsulluq cahillik və savadsızlıq kimi deyil, heç bir qorxu özünü bəyənməkdən dəhşətli ola bilməz və heç bir yaşayış gözəl xasiyyətdən ləzzətli deyil.

❖❖❖

Kimin nə qədər ümidi varsa, o qədər bilir.

❖❖❖

Xoş söz həsəd doğurar, ağılsız söz utancaqlıq gətirər.

❖❖❖

Biliyə qiymət verən adamlar yetişmiş ağıl sahibləridir.

❖❖❖

Xəstələnəndə yaxşı həkim axtardığın kimi, dərdə çarə istəyəndə də ağıla müraciət et.

❖❖❖

Hər kəsin yanında hər şeyi danışma, çünki hər kəsə hər şey lazım deyil.

❖❖❖

Görünüşündən müsbət bir nəticə əldə edə bilmədiyin bir adamın sözündən də müsbət nəticə ala bilməzsən.

❖❖❖

Ağlı kamil olan kimsə az danışar.

❖❖❖

Nadanlıq elə bir dəvədir ki, onu minən alçalar və onunla yoldaş olan itib batar.

❖❖❖

Yaramızı bir anda tanımaq olar, namuslu adamı tanımaq üçün isə uzun illər lazımdır.

❖❖❖

Adamlar arasında həyalı olmaq yaxşı hissdir, özü-özünün qarşısında həyalı olmaq isə daha yaxşıdır.

❖❖❖

Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.

*Çapa hazırladı: T.Aytən*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik